# Dərbənddə Heydər Əliyev Mərkəzi açılıb

**Azərbaycan Dövlət İqtisad Universitetinin Dərbənd filialının nəzdində Heydər Əliyev Mərkəzi açılıb.**

Bu barədə Dağıstan Respublikası administrasiyasının rəhbərinin rəsmi “Telegram” kanalında məlumat verilib.

Heydər Əliyev Mərkəzinin təntənəli açılış mərasimində Dağıstan Respublikasının başçısı Sergey Məlikov, Azərbaycanın elm və təhsil nazirinin müavini İdris İsayev və Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradov iştirak ediblər.

Mərkəzdə ekskluziv fotoşəkillər və kitablar var. Bununla yanaşı, burada asudə vaxtın keçirilməsi, habelə təhsil üzrə tədbirlərin təşkili nəzərdə tutulur.



Mərkəzdə, həmçinin Rusiya və Azərbaycan arasında dostluq münasibətlərinə xüsusi diqqət yetiriləcək.

Sergey Məlikov ekspozisiyaya baxdıqdan sonra Heydər Əliyev Mərkəzinin Fəxri qonaqlar kitabında ilk ürək sözlərini yazıb: “Bu əlamətdar gün Dağıstan və Azərbaycan arasında uzunmüddətli və sarsılmaz dostluğa aparan yolun təcəssümdür”.

Xalq qəzeti.- 2023.- 1 iyun.- S.7.